Nemət Pənahlı

# Ölləm

Azadlıq eşqiylə dərsimi aldım,
El dərdinə dərman bilməsəm ölləm!
Araz'dan o taya mən həsrət qaldım,
Savalan'da çiçək dərməsəm ölləm!

Sarp yokuşlar aşdı, könül səməndim,
Dəfələrlə öldüm, ölümdən döndüm,
Hünər meydanında divləri yendim,
Yusiftək, Misir'ə dönməsəm ölləm!

Kimsəyə ömrümdə boyun əymədim,
Namərdin qapısın əsla döymədim,
Əjdahalar yendim, qəlbə dəymədim,
Bunların dərsini verməsəm ölləm!

Ölsəm də dönmərəm Türkoğlu Türkəm,
Dəmirdən, çəlikdən, poladdan bərkəm,
Mərdlərə örnəyəm, namərdə görkəm,
Məzlumun göz yaşın silməsəm ölləm!

Qəddar zülmkarla dünya doludu,
Yolum Bozqurdların xilas yoludu,
Qollarım bükülməz, Haqqın qoludu,
Fərhadtək dağları dəlməsəm ölləm!

Zalıma qəniməm, məzluma dayaq,
Azadlıq türküsün hər yana yayaq,
Türkük, Turan üçün gəlin, baş qoyaq,
Elin harayına yetməsəm ölləm!

Yayılsın dünyaya Türk'ün haqq səsi,
Azadlıq aşiqin var, öz nəğməsi,
Sonsuz, tükənməzdi eşqi, həvəsi,
Mən eşq dəlisiyəm sevməsəm ölləm!

İllərlə meydanda məğrur dayandım,
Azadlıq uğrunda qana boyandım,
"Öldü var, döndü yox" müqəddəs andım,
Təbrizdə meydana girməsəm ölləm!

Azadlıq hər şeydi, imandı, dindi,
Meydan ər meydanı, söz millətindi,
*Nemət*, qalx ayağa, dövran sənindi,
Bütöv Azərbaycan görməsəm ölləm!